gəlinir ki, onların yeyilməsi heyvana zərər gətirə bilir, süd məhsuldarlığını aşağı salır. Yağışdan, yaxud güclü şehdən sonra, həmçinin acqarına yeyilmiş yaşıl şirəli yonca zəhərlidir. Paxlalar və ağ, sarı, göy lüpinin (acıpaxlanın) yaşıl bitkiləri, həmçinin toxumları və küləşi xüsusən quraq illərdə zəhərlidir.

**İnəyin bəzən həvəslə yediyi bir çox bitkilər südün və süd məhsullarının keyfiyyətini aşağı salır, ona görə də inəyin sahibi bu bitkiləri tanımalıdır ki, onların çox miqdarda inəyə yedizdirilməsinə yol verməsin.** Belə bitkilərə aiddir: bataqlıq sunərgizi - süd sağımını aşağı salır; adi dovşankələmi-süd asanlıqla pıxtalaşır, yağ pis çalxalanır; adi bozalaq - süd və ət iylənir; ximirçəkli südləyən, günəbaxan, bostan, bağ südləyəni - süd qırmızımtıl rəng alır, xoşagəlməz iy verir, süd sağımları aşağı düşür; bataqlıq və meşə yaddaşçiçəyi - süd göyümtül rəng alır; adi dağtərxunu (çöl quşarmudu) - süd acı kamfora iyi verir; yovşan - südə acı dadı verir; dərman çobanyastığı - südün dadını pisləşdirir (quru halda zərərsizdir); yabanı turp - südə turp dadı verir; adi qamış, bataqlıq qatırquyruğu - südə bataqlıq dadı, göyümtül rəng verir, süd sağımları azalır; turşəng (quzuqulağı) - südə turş dad verir; çöl yarğanotu (quştərəsi) - südə sarımsaq iyi verir, süd sağımları aşağı düşür.

Güclü iylənən bitkiləri lazım gəldikdə sağımdan dərhal sonra yedizdirmək olar ki, gələn növbəti satıma qədər ən azı yeddi saat keçsin.

İnək təxminən üçüncü doğuma qədər boy atır, ona görə də cavan inəyi bol yemləmək lazımdır ki, ondan yüksək süd sağımları əldə edilsin və onun gələcək böyüməsi ləngiməsin.

Təzə doğmuş inəklərə xüsusi diqqət verilməlidir, doğuşdan iki həftə sonra yelin normaya düşən kimi onlar geniş sağım qaydası ilə yemləndirilməlidir. Bu inəklərə avans yem verilməsini, yelinin massaj edilməsini və onların vaxtında suvarılmasını nəzərdə tutur. Mastiti (yelin iltihabı) olan çətin sağılan inəklərdə yelinin masajı xüsusi diqqətlə aparılmalıdır.

**Adil Məmmədov,**
özəl məsləhətçi

**İkinci Kənd Təsərrüfatının İnkişafı və Kreditləşdirilməsi Layihəsi**

**"Masallı Regional Məsləhət Mərkəzinin fəaliyyəti"**

**Layihə Dünya Bankının vəsaiti ilə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi tərəfindən maliyyələşdirilir.**

**İcraçı: Aqro-Məsləhət Qeyri Hökumət Təşkilatı**

**Ünvan: Bakı, C. Cabbarlı, 40.**
**Tel/Faks: 4978188; 5967018.**

"Kösər" mətbəəsində ofset üsulu ilə çap olunmuşdur. Sayı 3900.

# İnəyi düzgün saxlamaq və yeməndirmək süd məhsuldarlığını artırır



**BAKI-2009**

Sağmal inəklər düzgün saxlanılmalı və yemləndirilməlidir ki, onlardan malik olduğu qədər süd məhsulu əldə edilsin, inəklərin daha uzun müddət sağlam vəziyyətdə saxlanması təmin edilsin, hər il bir balavermə qabiliyyəti saxlanılsın.

**Yeni doğmuş inəyə qulluq.** Doğuşu başa çatmış inəyin yelini, qarnı, dal ayaqları, quyruğu sabunlu isti su ilə yuyulur. Çirklənmiş döşənək və son götürülür, inəyin altına quru, təmiz saman döşənir.

Doğuşdan yarım saat sonra inəyi ılıq su ilə suvarmaq və doyunca keyfiyyətli ot vermək lazımdır.

Birinci dəfə inəyi doğuşdan 11,5 saatdan sonra sağırlar. İnəyi birinci həftə (xüsusən ilkinə doğmuşu) sutkada bərabər fasilələrlə 4-5 dəfə sağmaq məsləhətdir. Doğum parezi (yüngül iflic) xəstəliyinə meyilli inəkləri ilk 2-3 dəfədə tamam sağmırlar.

**Sağmal inəyin yemləndirilməsi.** Doğuşdan sonra birinci gün inəyə doyunca yaxşı ot verirlər. İkinci gün ot və ılıq kəpək horrası (kəpək sutkada 1 kq-a qədər) verilir. 3-4-cü sutkalarda kəpəyin çəkisini 1,5-2 kq-a qədər artırmaq olar. Yeni doğmuş sağlam inəyi 12-15 gün ərzində tədricən tam yem normasına keçirirlər. Bağlı şəraitdə südlük inək üçün əsas yem yaxşı quru otdur.

Gövşəyən heyvanın normal həzm etməsindən ötrü hər 100 kq diri çəkisinə görə ən azı 2-2,5 kq qaba yemlər vermək lazımdır. Quru ot çatışmadıqda gündəlik quru ot normasının üçdə-dörddə bir hissəsini yaxşı yazlıq taxıl (vələmir, arpa, qılçıqsız buğda) küləşi ilə əvəz etmək lazımdır.

**Xüsusən aşağı keyfiyyətli qaba yemləri xırdalanmış, buğa verilmiş, yaxud qarışıq yemlərlə qatışdırılmış, azca duzlu su ilə isladılmış halda yedizdirmək daha yaxşıdır. Küləşi (samanı) hazırlanmış şəkildə yedizdirmək vacibdir.**

**Yemləməyə hazırlanmış yemlər həm yaxşı iştahla yeyilir, həm də tam həzm olunub mənimsənilir.**

Şirəli yemlər süd qovucu xassəyə malikdir, onları sağılan südün hər litrinə 2-3 kq hesabı ilə vermək olar. Kartofu, çuğunduru, şalğamı və digər kökümeyvəliləri mütləq yuyulub təmizləndikdən sonra yedizdirilməlidir. Yuyulmamış kökümeyvəlilərin yedizdirilməsi həzməgetmənin pozulmasına səbəb olur, deməli, süd sağımını aşağı salır. Kartofu çiy və bişmiş halda yedizdirirlər. Orta böyüklükdə kartofu mütləq xırdalayıb yedizdirmək lazımdır. Bişmiş kartof yedizdirilməsi daha sərfəlidir, ona görə ki, o, daha yaxşı həzm olunur. Çiy kartof süd sağımının artırılmasına daha yaxşı təsir edir.

Qüvvəli yemlərin normasını sağımdan asılı olaraq müəyyən etmək, sağılmış südün hər litrinə görə vermək olar.

İnəyə bacardıqca çox qarışıq yem yedizdirməyə çalışanlar səhv edirlər, onlar düşünürlər ki, bu yolla məhsuldarlığı yüksəltmək olar. Həddindən artıq qüvvəli yem yedizdirilməsi maddələr mübadiləsinin pozulmasına gətirib çıxarır, inək piylənməyə başlayır, pis mayalanır, süd sağımı aşağı düşür.

Çox süd verən inəklərə qüvvəli yemlərin bir hissəsini mayalanmış şəkildə yedizdirmək çox xeyirlidir. Qüvvəli yemlərin sutkalıq norması sağımların sayına görə yedizdirilir.

**Diri çəkisi 500 kq və gündəlik süd sağımı 15 l olan sağmal inəyə gündə ən azı 10 kq yaxşı quru ot, 25-30 kq şirəli yem, 2,5-3 kq qüvvəli yem, 50 q xörək duzu vermək lazımdır.** Sağmal inəyin yemləndirərkən nəzərə almaq lazımdır ki, bəzi yemlər südün və süd məhsullarının keyfiyyətinə mənfi təsir göstərir, ona görə də onları müəyyən miqdarda yedizdirmək lazımdır.

Yayda sağmal inəkdən ötrü əsas yem yaşıl otdur. Yaxşı otlaqda əlavə yem vermədən inəkdən sutkada 15 kq süd əldə edirlər. Daha çox süd verən inəyə əlavə qüvvəli yem verirlər.

**Az məhsuldar otlaqlarda otarılan inəklər biçilmiş otla əlavə yedizdirilir. Südünü qurutmuşlara və 8 kq-a qədər süd verən sağmal inəklərə gündə otlaq yemi ilə birlikdə 40-45 kq yaşıl ot, süd sağımı 10-12 kq olanlara 45-55 kq, 14-16 kq süd verənlərə 55-60 kq, 18 kq və çox süd verənlərə isə 60-70 kq yaşıl ot yedizdirilməlidir.**

Biçilmiş yaşıl otda tez-tez elə bitkilərə rast